*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*

***Derleme Makalesi | Review Article***
***Geliş tarihi |Received:09.02.2025***
***Kabul tarihi |Accepted:30.09.2025***
***Yayın tarihi |Published:25.10.2025***

**Ceyhun Məmmədli**

***https://orcid.org/0009-0003-4343-030X***
*PhD Student, Institute of Economics, Ministry of Science and Education of the Republic of Azerbaijan, Azerbaijan, ceyhunmmli@gmail.com*

***Atıf Künyesi | Citation Info***

Məmmədli, C. (2025). Gəlir Bərabərsizliyinə Təsir Göstərən İqtisadi, Texnoloji və Sosial Amillər. *Akademik Tarih ve Düşünce Dergisi*, *12* (5), 286-295.

# Gəlir Bərabərsizliyinə Təsir Göstərən İqtisadi, Texnoloji və Sosial Amillər

***Xülasə***

*Məqalədə texnologiya, qloballaşma və iqtisadi siyasətlərin gəlir bərabərsizliyini artırmaqda rolu araşdırılmışdır. Xüsusilə, süni intellekt və avtomatlaşdırmanın əmək bazarına təsiri, yüksək və aşağı ixtisaslı işçilər arasında yaranan fərqlər, həmçinin qloballaşmanın aşağı gəlirli qruplar və inkişaf etməkdə olan ölkələr üçün yaratdığı çətinliklər təhlil edilmişdir. Tədqiqatda gəlir bərabərsizliyinin azaldılması üçün təhsil imkanlarının genişləndirilməsi, vergi siyasətlərinin optimallaşdırılması və yaşıl iqtisadiyyat modellərinin tətbiqi kimi müasir yanaşmalar qiymətləndirilmişdir. Bu strategiyalar gəlirin ədalətli bölüşdürülməsinə və sosial mobilliyin artırılmasına töhfə verə biləcək əsas mexanizmlər kimi təqdim olunmuşdur. Ümumilikdə, məqalədə gəlir bərabərsizliyinin həm lokal, həm də qlobal miqyasda azaldılması üçün inklüziv iqtisadi artım, davamlı fiskal siyasətlər və ekoloji əsaslı investisiya yanaşmalarının vacibliyi vurğulanmışdır.*

***Açar sözlər:*** *Gəlir Bərabərsizliyi, Texnologiya, Süni Intellekt, Qloballaşma, Avtomatlaşdırma, Yaşıl Iqtisadiyyat, Vergi Siyasəti*

# Economic, Technological, and Social Factors Influencing Income Inequality

***Abstract***

*The article examines the role of technology, globalization, and economic policies in intensifying income inequality. In particular, it analyzes the impact of artificial intelligence and automation on the labor market, the widening gap between high- and low-skilled workers, and the challenges globalization poses for low-income groups and developing countries. The study evaluates modern approaches to reducing inequality, such as expanding access to education, optimizing tax policies, and implementing green economy models. These strategies are presented as key mechanisms for promoting fair income distribution and enhancing social mobility. Overall, the article emphasizes the importance of inclusive economic growth, sustainable fiscal policies, and environmentally oriented investment strategies in reducing income inequality at both local and global levels.*

***Keywords:*** *Income Inequality, Technology, Artificial Intelligence, Globalization, Automation, Green Economy, Tax Policy*

**Copyright and License Statement**

***All publication and copyright of this article are held by the Journal of Academic History and Ideas / Akademik Tarih ve Düşünce Dergisi. The article is made available by the journal as open access under the terms of the Creative Commons Attribution–NonCommercial 4.0 International License (CC BY-NC 4.0) (https://creativecommons.org/licenses/by-nc-nd/4.0/). Under this license, the article may be used, reproduced, and shared in any medium for non-commercial purposes, provided that proper scholarly attribution is given; however, the original content may not be altered, transformed, or used to create derivative works. The scientific, legal, and ethical responsibility for the content of the works published in the journal rests entirely with the author(s) of the article; the journal's editors and editorial board cannot be held responsible for this content. All requests concerning commercial reuse, translation, or republication of the article must be directed to the journal's editorial board at akademiktarihvedusunce@gmail.com.***

## Giriş

Gəlir bərabərsizliyi müasir dövrdə sosial ədalətsizliyin əsas göstəricilərindən biridir. İqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, gəlirin qeyri-bərabər paylanması cəmiyyətin müxtəlif sahələrində ciddi problemlər yaradır. Bu problemlər təkcə iqtisadi sabitliyin zəifləməsi ilə məhdudlaşmır, həm də sosial gərginlik və siyasi qeyri-sabitlik kimi təsirlər göstərir. Texnologiyanın sürətli inkişafı, xüsusilə də süni intellekt və avtomatlaşdırmanın geniş və dinamik yayıldığı bir dövrdə, əmək bazarında yeni ixtisaslaşma tələbləri yaradaraq, yüksək ixtisaslı və aşağı ixtisaslı işçilər arasındakı fərqləri artırmışdır. Qloballaşma prosesləri də gəlir bərabərsizliyinin dərinləşməsində mühüm rol oynayır. Çoxmillətli korporasiyaların fəaliyyətini ucuz işçi qüvvəsinə malik ölkələrə yönəltməsi və istehsal xərclərini azaltmaq üçün avtomatlaşdırma texnologiyalarından istifadə etməsi, həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə gəlirin qeyri-bərabər paylanmasına səbəb olmuşdur. Nəticədə, aşağı gəlirli qruplar üçün sosial rifahın pisləşməsi və orta təbəqənin xüsusi çəkisinin azalması müşahidə olunur. Gəlir bərabərsizliyinin əsas səbəblərini təhlil etmək, texnologiya və qloballaşma kimi müasir amillərin təsirini qiymətləndirmək və bərabərsizliyi azaltmaq üçün perspektivli həll yollarını təqdim etmək ölkələrin qarşısında duran əsas vəzifələrdəndir. Xüsusilə, inklüziv iqtisadi inkişaf, vergi siyasətlərinin optimallaşdırılması və yaşıl iqtisadiyyat modelləri gəlir bərabərsizliyinin azaldılması üçün strateji yanaşmalar kimi müzakirə olunur. Bu yanaşmalar həm qlobal, həm də lokal səviyyədə iqtisadi və sosial dayanıqlılığın təmin olunması üçün vacib hesab edilir.

## Gəlir Bərabərsizliyinin Ümumi İcmalı

Gəlir bərabərsizliyi müasir dövrün ən aktual iqtisadi və sosial problemlərindən biri hesab olunur. Sənayeləşmə və qloballaşmanın güclənməsi ilə birlikdə, iqtisadi inkişafın bəzi qruplara daha çox üstünlük verməsi gəlirin qeyri-bərabər paylanmasına təkan vermişdir. Bu tendensiya yalnız inkişaf etməkdə olan ölkələrdə deyil, eyni zamanda inkişaf etmiş iqtisadi sistemlərdə də müşahidə olunur. Aydındır ki, gəlir bərabərsizliyinin artması iqtisadi dayanıqlılığı zəiflədir, sosial gərginliyi artırır və siyasi qeyri-sabitliyə səbəb olur. Son illərdə texnologiyanın sürətli inkişafı, süni intellektin geniş yayılması, avtomatlaşdırmanın artması və əmək bazarındakı struktur dəyişiklikləri gəlirin cəmiyyət daxilində qeyri-bərabər paylanmasını daha da dərinləşdirmişdir.

Gəlir bərabərsizliyinin iqtisadi təsirləri genişmiqyaslıdır və makroiqtisadi göstəricilərə birbaşa təsir göstərir. Əhalinin böyük bir hissəsinin məhdud resurslara sahib olması istehlak səviyyəsini aşağı salır, bu isə öz növbəsində iqtisadi artımda ləngimələrə səbəb olur. Əgər

istehlakçı gücü zəifləyərsə, tələb azalır və bu da istehsalçılar üçün yeni investisiyalar qoymağı iqtisadi cəhətdən səmərəsiz hala gətirir. Beləliklə, iqtisadi sistemdə tənəzzül riski yüksəlir və böhranlar daha tez-tez baş verir. Bundan əlavə, yüksək gəlir bərabərsizliyi kapital axınlarının qeyri-sabitliyinə gətirib çıxarır. Yüksək gəlirli şəxslər və iri korporasiyalar əldə etdikləri gəliri istehlaka deyil, daha çox spekulyativ bazarlara və ya xaricə yönəltməyə meyilli olurlar ki, bu da daxili iqtisadiyyatın zəifləməsinə birbaşa təsir göstərir.

**Sosial və Texnoloji Təsirlər: Təhsil, Qloballaşma və Süni İntellekt**

Sosial baxımdan, gəlir bərabərsizliyi cəmiyyət üçün ciddi problemlər yaradır. Təhsilə, səhiyyəyə və digər əsas xidmətlərə çıxış imkanlarının qeyri-bərabər olması sosial təbəqələşməni artırır və sosial hərəkətliliyi daha da zəiflədir. Nəticədə, aşağı gəlirli təbəqələrin daha yüksək rifah səviyyəsinə çatması çətinləşir və gəlir bərabərsizliyi nəsildən nəsilə ötürülür. Sosial hərəkətliliyin zəiflədiyi ölkələrdə, aşağı gəlirli ailələrdə doğulan uşaqların iqtisadi vəziyyətlərini yaxşılaşdırmaq imkanları ciddi şəkildə məhdudlaşır. Bu isə sosial ədalətsizlik hissinin artmasına və cəmiyyət daxilində gərginliyin yüksəlməsinə səbəb olur. Bunlarla yanaşı, gəlir qeyri-bərabərliyi cinayətkarlıq səviyyəsinin artmasına və sosial etimadın azalmasına da səbəb olur. İnsanlar iqtisadi imkanların ədalətsiz paylandığını düşündükdə, dövlət qurumlarına və sosial institutlara olan inamları zəifləyir. Bu vəziyyət isə siyasi qeyri-sabitliyə və demokratik institutların zəifləməsinə gətirib çıxarır.

Gəlir bərabərsizliyi tarixi və struktur xarakter daşıyan bir problem olmaqla yanaşı, müasir dövrdə daha mürəkkəb və çoxşaxəli amillərlə formalaşmaqda davam edir. *"Bank əmanətlərinin və kənd təsərrüfatı torpaqlarının qeyri-bərabər bölgüsünün yüksək səviyyədə olması, elə keçmişdə sərvətin daha da qeyri-bərabər şəkildə paylanmasının göstəricisidir. Gəlir və sərvətin nəsildən nəsilə ötürülməsi nəticəsində cari gəlir bölgüsü daha da qeyri-bərabər hala gələ və hazırda daha yüksək səviyyədə gəlir bərabərsizliyinə səbəb ola bilər"* (Islam, 2016, s. 3). Bu göstərir ki, tarixi dövrlərdə iqtisadi resursların və sərvətin qeyri-bərabər bölgüsü uzunmüddətli təsirə malik olmuş və gəlir bərabərsizliyinin cari strukturunu formalaşdırmışdır. Keçmişdə sərvət və kapitalın məhdud qrupların əlində cəmlənməsi onların gələcək nəsillər üçün üstünlüklər əldə etməsinə şərait yaratmışdır. Bunun nəticəsində iqtisadi imkanlar və sosial hərəkətlilik məhdudlaşmış, bərabərsizlik isə zamanla daha dərin xarakter almışdır. İstinaddan da aydındır ki, bu tarixi faktorlar hələ də öz təsirini aktual saxlamaqdadır və qloballaşma, avtomatlaşdırma kimi yeni tendensiyalar bərabərsizliyin daha da möhkəmlənməsinə səbəb ola bilər. Son illərdə isə qloballaşma, süni intellekt, avtomatlaşdırma və əmək bazarının yeni tələbləri bu fərqləri daha da dərinləşdirmişdir.

Texnologiyanın sürətli inkişafı əmək bazarında ciddi dəyişikliklərə gətirib çıxarmışdır. Rəqəmsal transformasiya (digitallaşma) və avtomatlaşdırma ənənəvi sənaye sahələrində insan əməyinə olan tələbatı azaltmış, yüksək texnoloji biliklərə sahib olan işçi qüvvəsinə ehtiyacı daha da artırmışdır. Xüsusilə, süni intellekt, maşın öyrənməsi (machine learning) və robot texnologiyalarının inkişafı iş bazarında iki fərqli sinifin yaranmasına gətirib çıxarıb: yüksək ixtisaslı və yüksək gəlirli peşə sahibləri ilə aşağı ixtisaslı və aşağı gəlirli işçi qüvvələri. Beləliklə, gəlir bərabərsizliyi əmək bazarında texnoloji transformasiyanın birbaşa nəticəsi kimi daha da dərinləşməkdədir.

Texnologiya və qloballaşma yalnız gəlir bərabərsizliyini artırmır, həm də onun təbiətini dəyişir desək yanılmarıq. Əvvəllər iqtisadi bərabərsizlik daha çox ərazi, resurs və kapitala çıxışdan asılı olurdusa, artıq müasir dövrdə bilik iqtisadiyyatı və rəqəmsal infrastruktur əsas dominant amillərə çevrilmişdir. Süni intellektin genişlənməsi, avtomatlaşdırma və rəqəmsal platformaların artması ilə əmək bazarında yüksək ixtisaslı peşələrə olan tələbat artmış, aşağı ixtisaslı işçilər üçün isə iş imkanları əhəmiyyətli dərəcədə azalmışdır.

Süni intellekt və avtomatlaşdırmanın işçi qüvvəsi üzərindəki təsiri artıq qlobal miqyasda köklü şəkildə hiss olunur. "*Əksər peşələr üçün müəyyən tapşırıqlar botlar tərəfindən yerinə yetiriləcək, lakin bu, digər, daha mürəkkəb fəaliyyətlər üçün vaxt yaradacaq. Potensial olaraq anbarçılar, çatdırılma sürücüləri, daşınma sektorunda menecerlər, maşın operatorları və montajçılar, xidmət və satış işçiləri, sürücülük təlimçiləri, sürücülər, ofisiantlar, memarlar, müəllimlər, musiqiçilər və s. vəzifələri əsas təhlükə altındadırlar. Ümumilikdə, dünya üzrə 427 milyon iş və ya iş yerlərinin 13%-i süni intellekt səbəbindən dəyişə bilər*" (Polytechnique Insights, 2024).

Bunun əksinə olaraq, yüksək texnoloji biliklərə və bacarıqlara malik olan işçilər üçün yeni imkanlar daima yaranmaqdadır. Süni intellekt və rəqəmsal texnologiyalar yeni bazarlar açır və yüksək maaşlı iş yerlərinin sayına dinamik şəkildə təsir göstərir. Lakin bu imkanlardan yalnız bilik iqtisadiyyatında aktiv iştirak edə bilənlər faydalanır. Bu vəziyyət, sonda "rəqəmsal uçurum" deyilən yeni bir bərabərsizlik formasının yaranmasına gətirib çıxarır, rəqəmsal biliklərə və infrastruktura çıxışı olmayan insanlar iqtisadi inkişafdan kənarda qalır. Qloballaşma isə texnologiya ilə sinxron şəkildə təsirini göstərməkdədir. Çoxmillətli korporasiyaların inkişaf etməkdə olan ölkələrdə ucuz işçi qüvvəsindən istifadəsi və istehsal xərclərini azaltmaq üçün avtomatlaşdırmaya keçidi, bu ölkələrdə gəlir bərabərsizliyini daha da çətinləşdirir. Eyni zamanda, inkişaf etmiş ölkələrdə qloballaşma, istehsal təsərrüfatının xaricə daşınması ilə əmək bazarını hiss olunacaq dərəcədə zəiflədir, bu da orta sinfin gəlirlərini aşağı salır.

Bundan əlavə, qloballaşma iqtisadi fəaliyyətlərin daha geniş coğrafi məkanda yayılmasında da pay sahibidir. Qlobal ticarət, beynəlxalq investisiyalar və transsərhəd biznes əməliyyatları yüksək gəlirli korporasiyaların daha da zənginləşməsinə gətirib çıxararkən, bir çox aşağı gəlirli işçilərin sosial müdafiədən məhrum vəziyyətə enməsinə də səbəb olmuşdur. Xüsusilə, inkişaf etməkdə olan ölkələrdə aşağı ixtisaslı işçi qüvvəsi üçün iş imkanlarının minimallaşması və ucuz işçi qüvvəsindən istifadə edən çoxmillətli korporasiyaların iqtisadi təsiri gəlirin qeyri-bərabər paylanmasını daha da yüksəltmişdir.

Gəlir bərabərsizliyinin əsas səbəblərindən biri də təhsil imkanlarının da gəlir kimi qeyri-bərabər paylanmasındadır. Təhsil iqtisadi uğurun əsas amillərindən biri hesab olunsa da, sosial təbəqələr arasında təhsil imkanlarının bərabər olmaması gəlir fərqlərinin nəsillər boyunca davam etməsinə səbəb olmaqdadır. Yüksək gəlirli ailələrin övladları keyfiyyətli təhsil müəssisələrinə daxil olmaq və karyera imkanlarından daha geniş şəkildə istifadə etmək imkanı əldə edərkən, aşağı gəlirli ailələrdə doğulan uşaqlar üçün bu imkanlar hiss ediləcək dərəcədə məhdudlaşır. Sonda isə, sosial hərəkətlilik azalır və iqtisadi bərabərsizlik dərinləşir.

Yüksək təhsil səviyyəsi olan fərdlər əmək bazarında daha çox tələb olunan və yüksək maaşlı işlərdə çalışma şansı qazanırlar. Buna görə də, təhsil siyasətlərinin gəlir bərabərsizliyini azaltmaqda mühüm rolu var desək yanılmarıq. Checchi və Van de Werfhorst (2014) vurğulayırlar ki, *"Özəl sektorun erkən təhsilə daha çox vəsait ayırması ailələr arasındakı gəlir bərabərsizliyini daha da artırır və bu, təhsildən qeyri-bərabər şəkildə yararlanmağa təsir göstərə bilər"* (Checchi & Van de Werfhorst, 2014, s. 5). Bu fikir təhsilin erkən mərhələlərinin maliyyələşdirilməsinin gələcək gəlir bərabərsizliyi ilə necə əlaqəli olduğunu vurğulayır. Dövlət tərəfindən maliyyələşdirilən sistemlərdə erkən təhsil bütün sosial təbəqələr üçün daha əlçatan olduğuna görə, gələcəkdə iqtisadi imkanların daha bərabər paylanmasına yardımçı olur. Bunun əksinə olaraq, ABŞ kimi ölkələrdə erkən təhsilin əsasən özəl sektor tərəfindən maliyyələşdirilməsi aztəminatlı ailələrin təhsil imkanlarını kifayət qədər sərhədləyir və gələcəkdə onların aşağı gəlirli işlərdə çalışmasında birbaşa rol oynaya bilər. Nəticə etibarilə, bir qədər öncə vurğuladığımız kimi, təhsil xərclərinin yüksək olduğu ölkələrdə sosial hərəkətlilik azalır və gəlir qeyri-bərabərliyi daha da acınacaqlı hal alır.

**Həll Yolları: İnklüziv İnkişaf, Vergi Siyasəti və Yaşıl İqtisadiyyat**

Bu tendensiyalar göstərir ki, gəlir bərabərsizliyinin əsas səbəbləri iqtisadi, texnoloji və sosial struktur dəyişiklikləri ilə sıx əlaqəlidir. Bu amilləri düzgün idarə etmək və siyasətlərin effektivliyini artırmaq üçün dövlətlər müasir iqtisadi modelləri yenidən nəzərdən keçirməli və inklüziv inkişafı təmin edən mexanizmlərin gücünü artırmalıdır.

İnklüziv inkişaf müasir iqtisadi yanaşmalardan biri kimi yalnız iqtisadi artımı deyil, həm də onun cəmiyyətin bütün təbəqələrinə mümkün qədər ədalətli şəkildə paylanmasını hədəfləyir. Bu yanaşmanın əsas məqsədi iqtisadi imkanların yalnız yüksək gəlir qrupları üçün deyil, bütün sosial təbəqələr üçün əlçatan olmasını təmin etməkdir. Əgər iqtisadi artımın gətirdiyi faydalar yalnız müəyyən bir qrupun əlində cəmlənərsə, bu, gəlir bərabərsizliyini dərinləşdirir və sosial parçalanmaya gətirib çıxarır. İnklüziv iqtisadiyyatın formalaşması üçün sosial müqavilənin möhkəmliyi vacib şərt sayılır. Sosial müqavilə, vətəndaşlarla dövlət arasında qarşılıqlı öhdəlikləri və məsuliyyətləri müəyyən edən əsas dəyərlərdən biridir. Kifayət qədər güclü sosial müqavilənin mövcud olduğu cəmiyyətlərdə dövlət əhalinin sosial rifahını təmin etməyə çalışır, vətəndaşlar isə bunun qarşılığında dövlətin müəyyən etdiyi qaydalara riayət edirlər.

İnklüziv inkişafın təmin olunması üçün effektiv təhsil və əmək bazarı siyasətləri xüsusi əhəmiyyət daşıyır. Keyfiyyətli və əlçatan təhsil, iqtisadi imkanların daha geniş yayılmasına və sosial mobilliyin artmasına şərait yaradır. Əmək bazarında isə ədalətli qaydaların tətbiqi və aşağı gəlir qruplarının əmək hüquqlarının qorunması gəlir bərabərsizliyinin azaldılmasına mühüm töhfə verə bilər.

Dövlətin gəlir bölgüsünə təsir göstərmək üçün əsas alətlərindən biri onun həyata keçirdiyi vergi siyasətidir**.** Proqressiv vergitutma sistemləri gəlir bərabərsizliyini azaltmağa kömək etsə də, bəzi ölkələrdə vergi sisteminin zəifliyi və ya reqressiv vergilərin üstünlük təşkil etməsi bu bərabərsizliyi daha da artırır. Müasir dövrdə yüksək gəlirli fərdlər və korporasiyalar üçün vergi yükünün azaldılması, vergi optimizasiyası və ofşor maliyyə mexanizmlərinin geniş yayılması da gəlir bərabərsizliyinin artmasına səbəb olur.

Lakin proqressiv vergi ilə bağlı fikirlər birmənalı deyil. Bir qrup tədqiqatçı proqressiv verginin üstünlüyünü onun nəticəsində əldə olunan vəsaitlərin təhsil, səhiyyə və digər sosial sahələrdə istifadə imkanlarında görür. Digər tədqiqatçılar isə bu sistemin yüksək gəlirli şəxsləri investisiya fəaliyyətindən çəkindirə biləcəyini iddia edirlər (Investopedia, 2024).

Vergi siyasətinin sosial təsirləri geniş araşdırmaların mövzusudur və elmi ədəbiyyatda fərqli yanaşmaların mövcudluğu ilə xüsusi diqqət çəkir. *"Ədalətli və dayanıqlı vergi və yenidən bölüşdürmə sistemləri iqtisadi artımı təşviq etməklə yanaşı, sosial müdafiəni gücləndirir və yoxsulluğun azaldılmasına töhfə verir"* (Heshmati & Kim, 2014, s. 21). Vergilərin endirilməsi qısamüddətli perspektivdə sərmayə cəlbi üçün optimal görünsə də, uzunmüddətli periodda gəlir bərabərsizliyini artırır və dövlətin sosial müdafiə siyasətlərini həyata keçirmək imkanlarını məhdudlaşdırır.

Gəlir bərabərsizliyinin azaldılması təkcə sosial və iqtisadi siyasətlərin tətbiqi ilə məhdudlaşmır, həm də ekoloji davamlılıq prinsipləri ilə sıx əlaqəlidir. Yaşıl iqtisadiyyat modeli ətraf mühitin müdafiəsini, resursların ədalətli istifadəsini və sosial rifahın artırılmasına köklənən bir yanaşmadır. Ənənəvi iqtisadi sistemlərdə iqtisadi artım adətən təbii resursların intensiv istismarı və ekoloji tarazlığın pozulması ilə müşayiət olunduğu halda, yaşıl iqtisadiyyat bu tendensiyanı fərqli hala salmağı qarşısına məqsəd qoyur.

Bu yanaşmanın gəlir qeyri-bərabərliyinə təsiri ümumən 2 istiqamətdə müşahidə edilir. İlk öncə, yaşıl iqtisadiyyat yeni iş yerlərinin açılmasına və potensial məşğulluq imkanlarının yaradılmasına töhfə verir. Əlalxüsus, bərpa olunan enerji sahəsi, ekoloji təmiz istehsalat və "yaşıl" texnologiyalar yeni iş bazarının formalaşmasına köməkçi olur. Bu sektorların genişlənməsi ənənəvi sənaye sahələrində iş imkanlarını itirən insanlar üçün yeni məşğulluq perspektivləri açır və onların iqtisadi sistemdə mövqelərini daha da əlverişli hala gətirir.

İkincisi, yaşıl iqtisadiyyat ekoloji bərabərsizliyin enidirilməsinə və aşağı gəlir qruplarının ətraf mühit risklərinə daha az məruz qalmasına yardımçı olur. Ənənəvi iqtisadi modellərdə aşağı gəlirli təbəqələr çirklənmiş ərazilərdə yaşamağa və ekoloji fəlakətlərlə daha çox üz-üzə qalırlar, iqtisadiyyatın təşviqi isə bu fərqlərin azalmasına və daha davamlı yaşayış mühitinin formalaşdırılmasına şərait yaradır.

BMT-nin "Dayanıqlı İnkişaf Məqsədləri" çərçivəsində yaşıl iqtisadiyyat model olaraq daha geniş şəkildə təşviq edilir. Bu strategiyanın prinsipinə əsasən, dövlətlər bərpa olunan enerji mənbələrinə investisiyaları artırmalı, ekoloji vergilər tətbiq etməli və davamlı istehsal prinsiplərini mütəmadi olaraq dəstəkləməlidirlər. Ətraf mühitin müdafiəsini sosial rifah siyasətləri ilə birləşdirən bu yanaşma gəlir qeyri-bərabərliyinin azaldılmasına uzunmüddətli töhfədə çıxış edə bilər. *"Hər bir ölkə üçün milli şəraitə və prioritetlərə uyğun yaşıl iqtisadiyyat modeli dayanıqlı inkişaf və yoxsulluğun aradan qaldırılması üçün mühüm vasitələrdən biri kimi qəbul edilə bilər. Bu yanaşma yoxsulluğun azaldılmasına, davamlı iqtisadi inkişafa, sosial inklüzivliyə və insan rifahının artırılmasına töhfə verməlidir"* (United Nations, n.d.) Bu, yaşıl iqtisadiyyatın yalnız ekoloji xarakter deyil, həm də sosial və iqtisadi problemlərin həlli üçün əhəmiyyətli potensial təqdim etdiyini yenidən vurğulayır.

Yaşıl iqtisadiyyat modeli həm sosial, həm də iqtisadi dayanıqlılığa təkan verərək, gəlir bərabərsizliyinin azaldılmasına və cəmiyyətin müxtəlif təbəqələri arasında resursların daha bərabər bölünməsinə şərait yaradır. Bu modelin effektiv tətbiqi üçün dövlət və özəl sektor arasında əməkdaşlıq sıx şəkil almalı, ekoloji texnologiyalara daha çox sərmayə yatırılmalı və ekoloji dayanıqlılığı təmin edən qanunvericilik çərçivələri möhkəmləndirilməlidir.

Müasir iqtisadi modellərdə dövlət siyasətləri gəlirin daha ədalətli paylanmasına dəstək göstərən əsas vasitələrdən biri kimi anlaşılmaqdadır. Dövlətin iqtisadiyyatdakı rolu yalnız tənzimləyici mexanizmlərin tətbiqi ilə sərhədlənməməlidir. Bunun əvəzinə, dövlət daha aktiv şəkildə iqtisadi proseslərdə iştirak edərək sosial ədaləti təkmilləşdirən siyasətlər tətbiq edilməlidir. Məsələn, sosial rifah proqramlarının əhatə dairəsinin artırılması, təhsil və səhiyyə sahəsində investisiya qoyuluşlarının çoxaldılması gəlir bərabərsizliyinin azaldılmasına töhfə verə bilər. Bundan əlavə, dövlətin kiçik və orta sahibkarlığın inkişafına təkan verməsi aşağı gəlir qruplarının iqtisadi fəaliyyətlərdə daha fəal iştirakına kömək ola bilər.

Dövlət siyasətinin effektivliyi yalnız yerli xarakter daşımamalı, qlobal miqyasda da dərinləşdirilməlidir. Beynəlxalq əməkdaşlıq və ticarət sazişləri çərçivəsində sosial bərabərsizliyin azaldılması təmin olunması üçün dövlətlər arasında koordinasiya vacib şərtlərdən hesab olunur. Xüsusilə, çoxmillətli korporasiyalar üçün vergi rejimlərinin harmonizasiyası gəlirin qeyri-bərabər paylanmasının qarşısını almağa kömək edə bilər. Eləcə də, təhsil və insan kapitalı hər bir cəmiyyətin iqtisadi inkişafının və gəlir bərabərsizliyinin azaldılmasının əsas amillərindən sayılır. Müasir dövrdə təhsilə əlçatanlığın artırılması yalnız fərdi iqtisadi vəziyyətin yaxşılaşmasına deyil, həm də cəmiyyətin ümumi yaşayış səviyyəsinə töhfə verməkdədir. Xüsusilə də, aşağı gəlirli ailələrin övladları üçün keyfiyyətli təhsil imkanlarının təmin olunması gələcəkdə onların iqtisadi sistemə daha fəal şəkildə inteqrasiyasını təmin edə bilər.

Təhsilin yalnız iqtisadi məqsədlərlə kifayətləndirilməsi doğru yanaşma hesab olunmur. İqtisadi sistemlərin dayanıqlılığı və sosial harmoniyanın müdafiəsi üçün təhsilin dəyəri daha geniş perspektivdə dəyərləndirilməlidir. Erkən yaşlardan başlayaraq keyfiyyətli təhsil proqramlarının tətbiqi, texnoloji biliklərin inkişafına hesablanmış kursların təşviqi və ixtisaslaşmış peşə təhsili gələcəkdə əmək bazarının tələblərinə uyğun insan kapitalı formalaşdırmağa imkan yaradır. *"Qlobal inkişafda təhsilin rolu haqqında düşüncə tərzimizdə əsaslı dəyişiklik lazımdır, çünki bu, fərdlərin rifahına və planetimizin gələcəyinə katalitik təsir göstərir. İndi, həmişəkindən daha çox, təhsil 21-ci əsrin çağırışları və istəkləri ilə uyğunlaşmaq, davamlı və inklüziv inkişafa və birlikdə dinc yaşamağa gətirib çıxaracaq düzgün dəyərlər və bacarıq növlərini inkişaf etdirmək üçün məsuliyyət daşıyır"* (UNESCO, 2016). Bu yanaşma, təhsilin yalnız fərdi rifahı artırmaqla kifayətlənmədiyini, həm də sosial və iqtisadi sistemlərin dayanıqlılığına töhfə verdiyinin göstəricisidir. Təhsil, fərdi inkişafdan başlayaraq cəmiyyətin ümumi rifahına qədər çoxşaxəli təsir nümayiş etdirir və bu təsirlərin uzunmüddətli perspektivdə

davamlılığı üçün hökumətlərin və beynəlxalq təşkilatların əməkdaşlığı lazımi hesab olunur. Belə bir yanaşma gəlir bərabərsizliyinin azaldılması üçün strateji addımdır.

**Nəticə**

Gəlir bərabərsizliyi müasir iqtisadi sistemlərin dayanıqlılığına ciddi təhlükə yaradan problem olaraq qalmaqdadır. Texnologiya və qloballaşma bu problemin ən vacib hərəkətverici qüvvələrinə çevrilmişdir. Süni intellekt və avtomatlaşdırmanın əmək bazarına təsiri yüksək ixtisaslı peşələr üçün yeni imkanlar yaratsa da, aşağı ixtisaslı işçiləri işsizlik və məhdud iqtisadi imkanlarla üz-üzə qoymuşdur. Qloballaşma isə çoxmillətli korporasiyaların fəaliyyəti nəticəsində inkişaf etməkdə olan ölkələrdə əmək bazarını və sosial müdafiə sistemlərini zəiflədir. Eyni zamanda, inkişaf etmiş ölkələrdə qloballaşma orta təbəqənin zəifləməsinə və istehsalat sahələrinin xaricə köçürülməsi səbəbindən iqtisadi qeyri-sabitliyə gətirib çıxarır. Bu proseslər gəlir bərabərsizliyini artırmaqla yanaşı, siyasi qeyri-sabitlik və sosial gərginlik üçün də zəmin yaradır. Bu problemi aradan qaldırmaq üçün kompleks və çoxsəviyyəli yanaşmaların tətbiqi zəruridir. Təhsil və yenidən ixtisaslaşma proqramlarının təşviqi, xüsusilə də rəqəmsal bacarıqların artırılması, aşağı ixtisaslı işçilər üçün yeni iş imkanları yarada bilər. Bundan əlavə, vergi siyasətləri gəlirin ədalətli bölgüsündə mühüm rol oynayır. Proqressiv vergitutma sistemləri, yüksək gəlir qrupları üçün vergi optimizasiyasının məhdudlaşdırılması və sosial rifah proqramlarının gücləndirilməsi gəlir bərabərsizliyinin azaldılmasına əhəmiyyətli töhfə verə bilər. Yaşıl iqtisadiyyat modeli də bərabərsizliyin azaldılmasında potensial həll yollarından biri kimi çıxış edir. Alternativ enerji və ekoloji təmiz texnologiyalara yönəldilən investisiyalar yeni iş yerləri yaradaraq həm sosial, həm də iqtisadi dayanıqlılığı möhkəmləndirir. Ekoloji vergilərdən əldə olunan gəlirlərin sosial müdafiə proqramlarına yönəldilməsi isə gəlir bərabərsizliyinin azaldılmasında mühüm rol oynaya bilər. Dövlətlərin, beynəlxalq təşkilatların və özəl sektorun birgə fəaliyyəti gəlir qeyri-bərabərliyinin azaldılması baxımından böyük əhəmiyyət kəsb edir. Yalnız iqtisadi artımı deyil, həm də sosial inklüzivliyi təmin edən yanaşmalar və strateji planlar gəlir bərabərsizliyinin qarşısını almağa imkan yarada bilər. Nəticə etibarilə, davamlı iqtisadi modelin qurulması nəinki sosial ədaləti, həm də iqtisadi dayanıqlığı təmin edəcəkdir. Belə bir yanaşma qlobal miqyasda sosial sabitliyi və iqtisadi inkişafı dəstəkləyən əsas elementlərdən birinə çevrilə bilər.

**Ədəbiyyat**

Checchi, D., & Van de Werfhorst, H. G. (2014). *Educational policies and income inequality.* SSRN Electronic Journal. https://doi.org/10.2139/ssrn.2450413

Heshmati, A., & Kim, J. (2014). *A survey of the role of fiscal policy in addressing income inequality, poverty reduction and inclusive growth.* SSRN.

Investopedia. (2024, March). *Countries with the highest income taxes.* https://www.investopedia.com/taxes/countries-highest-income-taxes/

Islam, T. M. (2016). *Investigating the impact of historical factors on the present level of income inequality in the United States.* SSRN Electronic Journal.

Polytechnique Insights. (2024, January 10). *The ways AI will change the future of work.* https://www.polytechnique-insights.com/en/columns/digital/artificial-intelligence-what-

United Nations. (n.d.). *Green economy: Decisions and actions.* United Nations Sustainable Development. https://sustainabledevelopment.un.org/topics/greeneconomy/decisions

UNESCO. (2016, April 9). *Education needs to fundamentally change if we are to reach our global development goals.* Global Education Monitoring Report. https://www.unesco.org/gem-

***Telif ve Lisans Bildirimi***

*Bu makalenin tüm yayın ve telif hakları Journal of Academic History and Ideas / Akademik Tarih ve Düşünce Dergisi'ne aittir. Makale, dergi tarafından Creative Commons Atıf-GayriTicari 4.0 Uluslararası Lisansı (CC BY-NC 4.0) kapsamında açık erişimli olarak sunulmaktadır (https://creativecommons.org/licenses/by-nc-nd/4.0/). Bu lisans kapsamında, makale uygun bilimsel atıf yapılması koşuluyla ve yalnızca ticari olmayan amaçlarla her türlü ortamda kullanılabilir, çoğaltılabilir ve paylaşılabilir; ancak orijinal içeriğin değiştirilmesi, dönüştürülmesi veya üzerinde türev eser üretilmesi kesinlikle yasaktır. Dergide yayımlanan çalışmaların bilimsel, hukuki ve etik sorumluluğu tamamen makale yazar(lar)ına aittir; dergi editörleri ve yayın kurulu bu içerik nedeniyle sorumlu tutulamaz. Makalenin ticari yeniden kullanımı, çeviri veya yeniden yayımlanmasına ilişkin tüm talepler, derginin editör kuruluna akademiktarihvedusunce@gmail.com adresi üzerinden iletilmelidir.*